Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 10(102)-136/2021 02.11.2021

**ALİ MƏHKƏMƏ**

**Azərbaycan Respublikası adından**
**Azərbaycan Respublikası Ali Məhkəməsi**
**Mülki Kollegiyasının**
**Q Ə R A R D A D İ**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Şəfiyev İspəndiyar Əsəd oğlu (sədrlik edən və məruzəçi), Əhmədov Əhməd Abbas oğlu və Həsənov Vüqar Təvəkgül oğlundan ibarət tərkibdə,

X6 oğlunun katibliyi və X5 Moadab Esfenaninin vəkili X1 iştirakı ilə,

X2 Dubay Mülki Vəziyyətlər Məhkəməsinin 18 aprel 2018-ci il tarixli qətnaməsinin Azərbaycan Respublikası ərazisində tanınması barədə X5 Moadab Esfenaninin vəkili X1 vəsatətinə açıq məhkəmə iclasında baxaraq

**müəyyən etdi :**

X5 Moadab Esfenaninin vəkili X3 vəsatətlə müraciət edərək X2 Dubay Mülki Vəziyyətlər Məhkəməsinin 18 aprel 2018-ci il tarixli qətnaməsinin Azərbaycan Respublikası ərazisində tanınmasını xahiş etmişdir.

Məhkəmə kollegiyasının iclasında X5 Moadab Esfenaninin vəkili X3 vəsatətin dəlillərini müdafiə edərək təmin edilməsi barədə qərar qəbul edilməsini xahiş etdi.

Məruzəçini, ərizəçinin vəkili dinləyərək, vəsatətin dəlillərini araşdıraraq məhkəmə kollegiyası hesab edir ki, vəsatət əsaslı olduğu üçün təmin edilməlidir.

İş materiallarına əsasən müəyyən olunur ki, X2 Dubay İbtidai Məhkəməsinin 18 aprel 2018-ci il tarixli qətnaməsi ilə X7 Esfenani və Kassator arasında bağlanmış nikah pozulmuşdur.

Azərbaycan Respublikası MPM-nin 462-ci maddəsinə əsasən xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qətnamələri Azərbaycan Respublikası qanunvericiliyinə, hüquq qaydasına zidd deyildirsə və qarşılıqlı təminatlandırılmışdırsa, Azərbaycan Respublikasında tanına və icra edilə bilər.

Həmin Məcəllənin 469-cu maddəsinin tələbinə görə xarici dövlətin məcburi icra olunması tələb edilməyən məhkəmə qətnamələri, maraqlı şəxs tərəfindən buna qarşı etiraz daxil olmamışsa, hər hansı sonrakı icraat olmadan tanınır.

Həmin Məcəllənin 470.1-ci maddəsinə görə əgər xarici dövlətin məhkəmə qətnaməsi ilə nikah pozulmuşsa, etibarlı və yaxud etibarsız hesab edilmişsə, bu qətnamənin icra edilməsi üçün onun Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən tanınması tələb olunur. Bu halda tanınma xarici dövlətin qarşılıqlı təminatından asılı deyildir.

Məhkəmə kollegiyası hesab edir ki, X2 Dubay İbtidai Məhkəməsinin 18 aprel 2018-ci il tarixli qətnaməsi Azərbaycan Respublikasının qanunvericiliyinə və hüquq qaydasına zidd

olmadığına görə Azərbaycan Respublikasında tanınması ilə bağlı Azərbaycan Respublikası vətəndaşı olan X5 Moadab Esfenaninin vəkili X1 vəsatəti  təmin edilməlidir.

Məhkəmə kollegiyaı yuxarıda şərh edilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 462, 464, 467.1, 469, 470-ci maddələrini rəhbər tutaraq,

**qərara aldı:**

X5 Moadab Esfenaninin vəkili X1 vəsatəti təmin edilsin.

X2 Dubay İbtidai Məhkəməsinin 18 aprel 2018-ci il tarixli qətnaməsi Azərbaycan Respublikasında tanınsın.